**AZƏRBAYCAN RESPUBLKASI ELM və TƏHSİL NAZİRLİYİ**

**BAKİ DÖVLƏT UNİVERSİTETİ**

**AZƏRBAYCAN COĞRAFİYASI VƏ COĞRAFİYANIN TƏDRİSİ METODİKASI KAFEDRASI**

**BAKALAVR PİLLƏSİ ÜÇÜN**

# P R O Q R A M

**İXTİSAS -050503 "COĞRAFİYA"**

**FƏNN- "MƏDƏNİYYƏT COĞRAFİYASI"**

**BAKI-2023**

**AZƏRBAYCAN RESPUBLKASI ELM və TƏHSİL NAZİRLİYİ**

**BAKİ DÖVLƏT UNİVERSİTETİ**

**AZƏRBAYCAN COĞRAFİYASI VƏ COĞRAFİYANIN TƏDRİSİ METODİKASI KAFEDRASI**

# COĞRAFİYA İXTİSASI

# MƏDƏNİYYƏT COĞRAFİYASI KURSUNUN PROQRAMI

"Mədəniyyət coğrafiyası" fənni üzrə proqram BDU-nun Coğrafiya fakultəsinin Elmi Şurasının 15 aprel 2022-ci il 6saylı protokoluna əsasən təsdiq edilmişdir.

**Bakı-2023**

**Tərtib edənlər:** **p.ü.f.d. X.H.Qədimova, dos.Ü.T. İsmayilova**

**Rəy verənlər:** dos. Zaur İmrani - H. Əliyev adına Coğrafiya İnstitutunun Turizm -rekreasiya coğrafiyası şöbəsinin müdiri, dosent.

Dərgahov V.S. - BDU-nun Xarici ölkələrin iqtisadi- siyasi coğrafiyası və turizm kafedrasının dosenti.

## I Fənnin  təsviri

Tarixən hər millət  danışıq dilindən tutmuş, qavramasına qədər təbiət-cəmiyyət münasibətlərində özünə-məxsusluğu ilə seçilmişdi. Belə ki, mikro, makro, meqa aləmdə mövcud olan cisimlər təbiətin əsası kimi təsəvvür edilirdi. Digər tərəfdən təbiət dar mənada, yəni insanın yaşadığı cəmiyyətdəki fəaliyyətinin mühiti kimi də başa düşülür.

Ali məktəb tədris planlarında coğrafiya  ixtisasında tədris edilməsi nəzərdə tutulan Mədəniyyət coğrafiyası kursu  müxtəlif tipli və səviyyəli geomədəni, sosio-mədəni  sistemlərin mahiyyətini təhlil edərək, onların formalaşmasına təsir edən amilləri müəyyənləşdirmək məqsədi daşıyır. Sivilizasiyalar və onların tipi, tarixi-coğrafi baxımdan qiymətləndirilməsi, müasir dünyanın sivilizasiyaları haqqında bilikləri formalaşdırmaq fənnin preoritet istiqamətlərindən biridir. Mədəniyyət coğrafiyası fənni dünyanın mənəvi mədəniyyəti, onun elementləri, politeist, milli, dünya dinlərini xarakterizə edərək onların fəlsəfəsini, etikasını  müqayisə etməyə imkan verir. Dinlərin yaranmasını  tarixi-mədəni, tarixi -coğrafi baxımdan səciyyələndirmək, dünyanın maddi mədəniyyəti, tarixi dövlər üzrə maddi mədəniyyətin inkişaf xüsusiyyətlərini qiymətləndirmək bu kursun əhatə dairəsinə daxildir. Mədəni landşaftlar,dünyanın siyasi mədəniyyəti, coğrafi mədəniyyət və onun formalaşdırlması,Türk dünyasının və Azərbaycanın mədəniyyət coğrafiyası, maddi,mənəvi mədəniyyətləri, Ümumdünya mədəni irsi haqqında bilik və bacarıqların formalaşdırılması məqsədlər kimi müəyyənləşdirilib**.**

Mədəniyyət coğrafiyası digər fənnlərlə müqayisədə  təbiət-cəmiyyət-insan üçbucağını tam əhatə  edən mövqeyə malikdir.

## II Ümumi kompetensiyalar (ÜK):

ÜK-1–mədəni-coğrafi anlayışların, səbəb-nəticə əlaqələrinin, coğrafi qanunauyğunluqların araşdırılması və tətbiq etmək kompetensiyası;
( Təlim prosesi ilə elmi tədqiqatların aparılması arasındakı qarşılıqlı əlaqəni dərk etmək;)
ÜK-2 – mədəniyyət coğrafiyası fənninin tədrisi zamanı vətənpərvərlik - diyarşunaslıq, iqtisadi - ekoloji, pedaqoji –psxoloji prinsiplər baxımından təhlil etmək bacarığı;
ÜK-3 –mədəniyyət coğrafiyasının tədrisində istifadə olunan ədəbiyyatın və digər elektron, audio – vizual, əyani və s.tədris vəsaitlərini fənnin məzmununa uyğun olaraq sistemləşdirmək;
ÜK-4 – mədəniyyət coğrafiyasına aid bilik və bacarıqların səviyyəsini müəyyən etmək üçün fənn üzrə qiymətləndirmə üsul və vasitələrindən istifadəni nümayiş etdirmək;
ÜK-5 – Mədəniyyət coğrafiyasının elmi səviyyəsinin, metodik əsaslarının qiymətləndirilməsi;

## İxtisas kompetensiyaları (İK):

İK-1 –mədəniyyət coğrafiyası kursunun məzmununu nəzəri cəhətdən əsaslandırmaq;
İK-2 –müxtəlif tipli və səviyyəli geomədəni, sosio-mədəni sistemlərin mahiyyətini təhlil etmək;
İK-3 –xalqların adət-ənənələri, milli xüsusiyyətlərinin formalaşmasına təsir edən amilləri müəyyənləşdirmək;
İK-4 –dinlərin yaranmasının tarixi- coğrafi xüsusiyyətlərini araşdırmaq;( ixtisas üzrə tədqiqat işlərini təhlil etmək və kollektivdə işləmək bacarığı;)
İK-5 –sivilizasiyaları maddi-mədəni,tarixi-coğrafi baxımdan sistemləşdirmək;
İK-6 –fənn üzrə layihələrin hazırlanması və prezentasiyanı keçirmək;

## III Fənnin hədəfi

Mədəniyyət coğrafiyası elminin inkişafı və formalaşmasında keçilmiş mərhələləri, fənnin predmeti, tədqiqat obyekti, tədqiqat metodları, məqsəd və vəzifələrini müəyyənləşdirmək;
-mədəni- coğrafi termin və anlayışları izah etmək;
-geomədəni, etnomədəni, sosio-mədəni sistemləri fərqləndirmək;
-mədəniyyət coğrafiyasının müasir aktual problemlərini müəyyən etmək və

onların həlli yollarını müzakirə etmək;
-dünya ictimaiyyətinin (cəmiyyəti) müasir vəziyyətini, iri sivilizasiya mərkəzlərini

təhlil və müqayisə etmək;
-Azərbaycan mədəniyyətinin, mədəni landşaftlarının dünya və Türk birliyindəki mövqeyi və müqayisəli təhlili;
-mədəni-coğrafi baxımdan insan fəaliyyətinin coğrafi mühitlə əlaqəsini təhlil etmək;

## IV Fənn üzrə təlim nəticələri:

FTN-1- Mədəniyyət coğrafiyası kursunun nəzəri əsaslarının tarixi inkişaf yolunu təhlil edir;

FTN-2 –- mədəniyyət komponentləri və onların müxtəlifliyinin səbəblərini izah

FTN-3 –- sivilizasiya və onlara aid nəzəriyyələri, sivilizasiyaların yaranma və məhv olma səbəblərini sistemləşdirir;

FTN-4 – dünyada mövcud olan maddi mədəniyyət və onun obyektlərinin əhəmiyyətini qiymətləndirir;

FTN-5- mənəvi mədəniyyət, tarixi inkişaf yolu, politeist, monoteist, lokal və dünyəvi dinlər, onların fəlsəfəsi və etikasını izah edir;

FTN-6 – Azərbaycanın və Türk dünyasının geomədəni və etnomədəni sistemlərini dünyanın geomədəni regionları ilə müqayisə edir;

## V Qiymətləndirmə metodları:

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 11.09.2008-ci il tarixli 1060 nömrəli əmri ilə təsdiq edilmiş “Kredit sistemi ilə təhsil alan tələbələrin birliyinin qiymətləndirilməsi haqqında Əsasnamə”-nin tələbləri əsas götürülür və 100 balla qiymətləndirilir. Fənnin mənimsənilmə səviyyəsini müəyyən etmək üçün qiymətləndirmə iki mərhələdə aparılır. Birinci mərhələdə mühazirədə iştirak etməsi, seminar dərslərdə və kollokvumlarda cavabına və sərbəst işləri yerinə yetirməsinə görə maksimum 50 balla qiymətləndirilir. İkinci mərhələdə tələbə İmtahanda hər biletdə 5 sual və hər bir sual maksimum 10 bal olmaqla maksimum 50 balla qiymətləndirilir. Tələbənin imtahanda topladığı bal 17-dən az olmamalıdır. Tələbənin cavabı qeyd olunan meyarlar nəzərə alınmaqla qiymətləndirilir:

- ***10 bal*** - tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;

– ***9 bal*** - tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun məzmununu aça bilir*;*

– ***8 bal*** - tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;

- ***7 bal*** - tələbə keçilmiş materialı yaxşı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;

***-6 bal*** - tələbənin cavabı əsasən düzgündür;

– ***- 5 bal*** - tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir**;**

***-4 bal*** - tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;

– ***-3 bal*** - tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandırmağı bacarmır;

***- 1-2 bal*** - tələbənin mövzudan qismən xəbəri var;

***- 0 bal*** - suala cavab yoxdur.

## VI <u>Fənnin tədrisində istifadə olunan təlim-tədris metodları:</u>

- Mühazirə metodları
- Müzakirə metodları
- Tədqiqat metodları;
- Təqdimatlar metodları
- Yaradıcı təfəkkür metodları
- Tənqidi təfəkkür metodları

Təlim-tədris prosesində metodlara uyğun üsul və texnikalardan istifadə edilir:

- Mühazirə: mühazirə-annotasiya, problemli-mühazirə, mühazirə-dialoq vəs
- Beyin həmləsi: anlayışın çıxarılması, suallar, klaster, və s.
- Müzakirə metodları – klassik dialoq, dəyirmi masa, forum, çarpaz müzakirə (debat),akvarium və s.
- Tədqiqatın metodları – problemin həlli, layihələrin hazırlanması, qərarlar ağacı, müsahibə, sosioloji sorğu və s.
- Təqdimatlar – esse,ekspert qrupu, təqdimat, işgüzar oyunlar, rollu oyunlar və s.

**TEMATİK PLAN**

**Mühazirə-30 saat**

| № | Mövzular | Saat |
|---|---|---|
| **1.** | Mədəniyyət coğrafiyası kursunun predmeti,məqsədi və vəzifələri | **2** |
| **2.** | Mədəniyyət coğrafiyasının nəzəri əsasları | **2** |
| **3.** | Sivilizasiyalar və onların tarixi -coğrafi baxımdan qiymətləndirilməsi | **2** |
| **4.** | Müasir dünyanın sivilizasiyaları | **2** |
| **5.** | Dünyanın mənəvi mədəniyyətinin coğrafiyası . | **2** |
| **6.** | Politeist, milli və dünya dinləri | **2** |
| **7.** | Dünyanın maddi mədəniyyəti | **2** |
| **8.** | Mədəni landşaftlar, növ və kateqoriyaları | **2** |
| **9.** | Dünyanın siyasi mədəniyyəti | **2** |
| **10.** | Coğrafi mədəniyyət və onun formalaşdırılması | **2** |
| **11.** | Dünyanın mədəni- coğrafi rayonlaşdırılması | **2** |
| **12.** | Türk dünyasının mədəniyyət coğrafiyası.Türk sivilizasiyasi | **2** |
| **13.** | Azərbaycanın mədəniyyət coğrafiyası | **2** |
| **14.** | Azərbaycanın maddi və mənəvi mədəniyyəti | **2** |
| **15.** | Ümumdünya mədəni irsi**.** Maddi-mədəni və qeyri-maddi mədəni irs | **2** |

**Məşğələ - 30 saat**

| № | Mövular | Saat |
|---|---|---|
| **1.** | Mədəniyyət coğrafiyası kursunun predmeti,məqsədi və vəzifələri | **2** |
| **2.** | Mədəniyyət coğrafiyasının digər elmlərlə əlaqəsi | **2** |
| **3.** | Sivilizasiyalar və tipləri. | **2** |
| **4.** | Müasir sivilizasiyalar və onların tarixi -coğrafi baxımdan qiymətləndirilməsi | **2** |
| **5.** | Mənəvi mədəniyyətin elementləri | **2** |
| **6.** | Din və dinlərin yaranmasının tarixi-coğrafi xüsusiyyətləri. | **2** |
| **7.** | Tarixi dövrlər üzrə maddi mədəniyyətin inkişaf xüsusiyyətləri | **2** |
| **8.** | Mədəni landşaft növləri. Bağ –park landşaftı | **2** |
| **9.** | Siyasi mədəniyyət və elementləri | **2** |
| **10.** | Coğrafi mədəniyyət və onun formalaşdırılması | **2** |
| **11.** | Dünyanın mədəni –coğrafi rayonlaşdırılması | **2** |
| **12.** | Türklərin etnogenezi və köçəri Türk mədəniyyətinin spesifikası. Türk sivilizasiyası. | **2** |
| **13.** | Azərbaycanın mədəniyyət coğrafiyası | **2** |
| **14.** | Azərbaycan mədəniyyətinin inkişaf dövrləri | **2** |
| **15.** | Ümumdünya mədəni və təbii irsində Azərbaycan mədəniyyətinin yeri | **2** |

# VII. Mövzuların xülasəsi.

## Mövzu 1. Mədəniyyət coğrafiyası kursunun predmeti, məqsəd və vəzifələri.

Mədəniyyət coğrafiyası kursunun predmeti, tədris olunmasının əhəmiyyəti , yaranması, tədqiqat metodları. Dünyanın digər ölkələrində mədəniyyət coğrafiyası.Mədəniyyət coğrafiyası- müasir tədqiqatlar və onlara müxtəlif yanaşmalar. Mədəniyyət coğrafiyasının sosiomədəni-coğrafi elmlər arasında yeri.

*Mövzunun təlim nəticələri:*

MTN-1–Mədəniyyət coğrafiyasının predmeti və coğrafi biliklər sistemində yerini müəyyən edir;

MTN-2 –Mədəniyyət coğrafiyasının əsas vəzifələrini,tədqiqat sahələrini təhlil edir;

MTN-3–Mədəniyyət coğrafiyasının prinsiplərini və elementlərini fərqləndirir;

MTN-4 – Mədəniyyət coğrafiyası elminin tədqiqat metodlarını, məqsəd və vəzifələrini, obyektini əsaslandırır;

*Qiymətləndirmə tapşırıqları:*

1. Mədəniyyət coğrafiyası fənninin əlaqədə olduğu elmlər sistemində rolu nədən ibarətdir?
2. Mədəni-coğrafi anlayışları, prinsipləri və elementləri, tədqiqat obyektlərini müəyyənləşdirin.
3. Mədəniyyət coğrafiyası elminin tədqiqat metodları hansılardır?
4. Mədəniyyət coğrafiyasının əlaqədə olduğu elm sahələrinin fənnin inkişafındakı rolunu dəyərləndirin.
5. Müasir tədqiqatlar və onlara müxtəlif yanaşmaları səciyyələndirin.
6. Mədəniyyət coğrafiyası elminin nəzəri problemlərini təhlil edin.

**Mövzu 2. Mədəniyyət coğrafiyasının nəzəri əsasları.**

Mədəniyyət və inkulturasiya anlayışları. Mədəniyyətin subyekti və formaları (incəsənət, din, əxlaq, hüquq, idealogiya, elm, fəlsəfə, iqtisadiyyat) Sivilizasiya nəzəriyyələri. Müxtəlif nəzəri baxışlar (Kreber,P.A.Sorokin,N.Y.Danilevski,A.Toynbi,C.Xantinqton,V.S.Jekulin,Q.A.İsa-çenko,L.Qumilyov). Lokal nəzəriyyələr (Toffler,Şpenqler,Brodel).

*Mövzunun təlim nəticələri:*

MTN-1 – Mədəniyyətin subyekti və formalarını, anlayışları şərh edir;
MTN-2 – Mədəniyyət coğrafiyasının əsas nəzəriyyələrini fərqləndirir;
MTN-3 – Müasir Qərb nəzəriyyələrini izah edir;
MTN -4 - Lokal sivilizasiya nəzıriyyələrini müqayisə edir;
MTN- 5 – Mədəniyyət və inkulturasiya anlayışlarını səciyyələndirir.

*Qiymətləndirmə tapşırıqları:*

1. Mədəniyyətin subyekt və formalarını xarakterizə edin.
2. Mədəniyyət coğrafiyasının əsas nəzəriyyələrini fərqləndirin.
3. Müasir Qərb nəzəriyyələrinin əsas mahiyyəti nədən ibarətdir?
4. Lokal sivilizasiya nəzəriyyələrini müqayisə edin.
5. Mədəniyyət və inkulturasiya anlayışlarının fərqli və oxşar xüsusiyyətləri hansılardır?

## Mövzu 3. Sivilizasiyalar və onların tarixi -coğrafi baxımdan qiymətləndirilməsi.

Sivilizasiya və mədəniyyət anlayışları. Mahiyyəti və əlaqələri. Sosial-mədəni sistem.Qədim və lokal sivilizasiyalar. Sivilizasiyaların formalaşmasında təbii mühit amillərinin rolu. Sivilizasiya ocaqları:qədim Çin,hind,qədim Misir Mesopotamiya, Şumer və s.

*Mövzunun təlim nəticələri:*

MTN-1 – Sivilizasiya və mədəniyyət anlayışlarının mahiyyətini şərh edir;
MTN-2 – Qədim və lokal sivilizasiyaları sistemləşdirir;
MTN-3– Sivilizasiyaların formalaşmasında təbii mühit amillərinin rolunu əsaslandırır;
MTN-4 – Sivilizasiya ocaqlarını: qədim Çin, hind, qədim Misir, Mesopotamiya, Şumer və s.sivilizasiyalarını tarixi-mədəni aspektdən qiymətləndirir;
MTN-5 - Sosial-mədəni sistemlərin mahiyyətini açıqlayır.

*Qiymətləndirmə tapşırıqları:*

1. Sivilizasiya anlayışı və mahiyyətini izah edin.
2. Sivilizasiya və mədəniyyəti əlaqələndirən hansı fikir və yanaşmalar mövcuddur?
3. Qədim və lokal sivilizasiyaları müqayisə edin.
4. Sivilizasiyaların həyat siklini qeyd edin və əsaslandırın.
5. Sivilizasiya ocaqlarını tarixi-mədəni aspektdən qiymətləndirin.

**Mövzu 4. Müasir dünyanın sivilizasiyaları.**

Sivilizasiyanın əsas tipləri(şərqi, qərbi,texnogen,qlobal). Mentalitet və xüsusiyyətləri. Dünya mədəniyyətinin dövrləri. Mədəniyyətin subyektləri və əsas formaları S. Xantinqtonun nəzəriyyəsi. XXI əsrdə inkişaf edəcək sivilizasiyaların xüsusiyyətləri. (S.Xantinqtona görə)

*Mövzunun təlim nəticələri:*

MTN-1 – Sivilizasiyanı təşkil edən elementləri şərh edir;
MTN-2 – Sivilizasiyanın əsas tiplərini müqayisə edir;
MTN-3 – Mədəniyyətin subyektləri və formalarını şərh edir;
MTN-4 – XXI əsrdə inkişaf edəcək sivilizasiyları xarakterizə edir;
MTN-5 - S.Xantinqtonun nəzəriyyəsini qiymətləndirir.

*Qiymətləndirmə tapşırıqları:*

1. Sivilizasiyanı təşkil edən elementləri açıqlayın.
2. Sivilizasiyanın əsas tiplərini müqayisə edin.
3. Mədəniyyətin subyektləri və formalarını necə səciyyələndirmək olar?
4. XXI əsrdə inkişaf edəcək sivilizasiyları xarakterizə edin.
5. S.Xantinqtonun nəzəriyyəsinə münasibət bildirin.

**Mövzu 5. Dünyanın mənəvi mədəniyyətinin coğrafiyası.**

Mənəvi mədəniyyət anlayışı və quruluşu. Mənəvi mədəniyyətin elementləri ( incəsənət, din, fəlsəfə, rəmzlər, miflər, əxlaq, elm, siyasi ideallar, ideyalar). Mənəvi mədəniyyətin təzahürləri ( adət- ənənələr, mərasimlər, mədəni normalar, dəyərlər). Etnosun əlamətləri və meyarlar. Milli xüsusiyyətlərin formalaşmasına təsir edən amillər.Mənəvi mədəniyyətin ilkin forması – mifologiya. Qədim insanların ilk etiqadları. Totemizm və insan köklərinin axtarışı. Dünyada insan cəmiyyətinin yaranması. Qədim insanların coğrafi təsəvvürlərinin formalaşması. Mentalitet və mentifaktlar

.

*Mövzunun təlim nəticələri:*

MTN-1 –Mənəvi mədəniyyət anlayışı və quruluşunu şərh edir;
MTN-2 – Mənəvi mədəniyyət elementlərini izah edir;
MTN-3 – Etnosun əlamətlərini və meyarları xarakterizə edir;
MTN-4 – Mənəvi mədəniyyətin təzahürlərini səciyyələndirir;
MTN-5 - Qədim insanların ilk etiqadlarını sistemləşdirir.

*Qiymətləndirmə tapşırıqları:*

1. Mənəvi mədəniyyətin quruluşunu şərh edin.
2. Etnosun əlamətləri və meyarları nə ilə xarakterizə olunur?
3. Nağılvə miflərin yaranma səbəbləri və mahiyyətini nə ilə əlaqələndirilir?
4. Mənəvi mədəniyyətin təzahürlərini izah edin.
5. Qədim insanların ilk etiqadlarını tarixi-coğrafi baxımdan

   sistemləşdirin.

## Mövzu 6. Politeist, milli və dünya dinləri.

Politeist dinlər: qədim Misir, Mesopotamiya, qədim Yunan və Roma, iranlıların dinləri. Hinduizm və Çin dinləri. Milli dinlər. Dinlərin yaranmasının tarixi-coğrafi xüsusiyyətləri. Dünyəvi dinlər (Buddizm, xristianlıq,İslam) Dinin fəlsəfəsi və etikası

*Mövzunun təlim nəticələri:*

MTN-1 - Dinlərin yaranmasının tarixi-coğrafi xüsusiyyətlərini şərh edir;
MTN-2 – Politeist dinlərin xüsusiyyətlərini fərqləndirir;
MTN-3 – Politeist, monoteist, milli və dünyəvi dinləri müqayisə edir;
MTN-4 - Dünyəvi dinlərin mahiyyətini izah edir;
MTN-5 - Dinlərin fəlsəfəsi və etikasını səciyyələndirir.

*Qiymətləndirmə tapşırıqları:*

1. Dinlərin yaranmasının tarixi-coğrafi xüsusiyyətləri hansılardır?
2. Politeist, monoteist dinləri müqayisə edin.
3. Dünyəvi dinlərin mahiyyətini izah edin.
4. İslam və xristian dinlərini səciyyələndirin.
5. Dinlərin fəlsəfəsi və etikasının fərqi nədədir?

## Mövzu 7. Dünyanın maddi mədəniyyəti.

İbtidai icma dövrünün maddi mədəniyyəti.İlk dövlətlər dövrünün maddi mədəniyyəti (Misir,Mesopotamiya,Şan dövləti,Hindistan).Antik dövrün maddi mədəniyyəti. Orta əsrlərin maddi mədəniyyəti. Qərbi və Mərkəzi Avropanın orta əsr mədəniyyətinin inkişaf mərhələləri.İntibah dövrü mədəniyyəti. Asiya və Afrika ölkələrinin maddi mədəniyyəti.Yeni dövrün və müasir dünyanın maddi mədəniyyəti.

*Mövzunun təlim nəticələri:*

MTN-1 – Qədim dünyanın maddi mədəniyyəti və nümunələrini şərh edir;
MTN-2 – Qədim Yunan və Roma maddi mədəniyyətini səciyyələndirir;
MTN-3 – Orta əsrlər Qərbi Avropa mədəniyyətinin inkişaf mərhələlərini şərh edir;
MTN-4 – Yeni dövrün və müasir dünyanın mədəni müxtəlifliyini əsaslandırır;

MTN-5 - Asiya və Afrika ölkələrinin maddi mədəniyyəti müqayisə edir.

*Qiymətləndirmə tapşırıqları:*

1. Maddi mədəniyyəti və nümunələrini şərh edin.
2. Antik dövr maddi mədəniyyətinin şedevr nümunələri hansılardır?
3. Orta əsrlər Qərbi Avropa mədəniyyətinin inkişaf mərhələlərini hansı xüsusiyyətlərinə görə fərqləndirmək olar?
4. Yeni dövrün və müasir dünyanın mədəni müxtəlifliyini əsaslandırın.
5. Qədim dünyanın maddi mədəniyyətini şərh edin.

## Mövzu 8. Mədəni landşaftlar, növləri və Kateqoriyaları.

Mədəni landşaft anlayışı, növləri və kateqoriyaları. Landşaft dizaynları. Təbii abidələr. UNESKO -nun mədəni landşaftı müəyyənləşdirən kriteriyaları və növləri. Park elementləri. Müxtəlif ölkələrdə park və bağların salınma xüsusiyyətləri.

*Mövzunun təlim nəticələri:*

MTN-1 – Mədəni landşaftın növlərini və kateqoriyalarını izah edir;
MTN-2 – Təbii landşaft abidələrinin növlərini şərh edir;
MTN-3 – Müxtəlif ölkələrdə bağ-park landşaftlarının xüsusiyyətlərini fərqləndirir;
MTN-4 – İlk bağ-park landşaftların yarandığı ölkələri səciyyələndirir;
MTN-5 – UNESCO-nun mədəni landşaftı müəyyənləşdirən kriteriyaları və növləri şərh edir;

*Qiymətləndirmə tapşırıqları:*

1. Bağ- park incəsənətini reqionlar üzrə xarakterizə edin.
2. Mədəni landşaftların növləri və kateqoriyaları hansılardır?
3. Təbii landşaft abidələrinin təsnifatını nümunələr əsasında izah edin.
4. İlk bağ-park landşaftların yarandığı ölkələri səciyyələndirin.
5. Müxtəlif ölkələrdə bağ-park landşaftlarını xüsusiyyətlərinə görə fərqləndirin.

**Mövzu 9. Dünyanın siyasi mədəniyyəti.**

Siyasi mədəniyyət anlayışı və yaranması. Siyasi mədəniyyət və onun elementləri. J.Hakslinin təsnifatı (artefaktlar,mentifaktlar, sosiofaktlar). Siyasi rəmzlər.D.A.Misyurovun təsnifatı. Siyasi idealogiya və geniş yayılmış növləri (mühafizəkarlıq, liberalizm,radikalizm, populizm). Mədəniyyət və siyasətin əlaqəsi.

*Mövzunun təlim nəticələri:*

MTN-1 – Siyasi mədəniyyət və onun elementlərini şərh edir;
MTN-2 – Siyasi mədəniyyət anlayışı və meydana gəlməsini izah edir;
MTN-3 – Mədəniyyət və siyasətin əlaqəsini əsaslandırır;

MTN-4 –Artefakt,mentifakt,sosiofaktları fərqləndirir;

MTN-5 – Siyasi ideologiya və növlərini xarakterizə edir.

*Qiymətləndirmə tapşırıqları:*

1. Siyasi mədəniyyət və onun elementləri hansılardır?
2. Siyasi mədəniyyətin mahiyyətini izah edin.
3. Siyasi rəmzləri və D.A.Misyurovun təsnifatının cədvəlini tərtib edin.
4. Siyasi idealogiya növlərini xarakterizə edin.
5. J.Haksli və D.A.Misyurovun təsnifatlarını şərh edin.

**Mövzu 10. Coğrafi mədəniyyət və onun formalaşdırılması.**

Coğrafi mədəniyyət anlayışı. Coğrafi mədəniyyətin əsas komponentləri. Coğrafi təfəkkür. Coğrafi dil. Coğrafiya metodları. Dünyanın coğrafi mənzərəsinin komponentləri. Empirik və nəzəri metodlar. Coğrafi mədəniyyət və ekologiya. Coğrafi düşüncə və təsəvvürlərin formalaşdırılması. Cəmiyyətin formalaşmasında coğrafi mədəniyyətin rolu.

*Mövzunun təlim nəticələri:*

MTN-1 – Coğrafi mədəniyyətin əsas komponentlərini izah edir;
MTN-2 – Dünyanın coğrafi mənzərəsinin komponentlərini şərh edir;
MTN-3 – Cəmiyyətin formalaşmasında coğrafi mədəniyyətin rolunu əsaslandırır;
MTN-4 – Coğrafiya metodlarının alqoritmlərini səciyyələndirir;
MTN-5 - Empirik və nəzəri metodları xarakterizə edir.

*Qiymətləndirmə tapşırıqları:*

1. Coğrafi mədəniyyətin əsas komponentləri hansılardır?
2. Empirik və nəzəri metodları səciyyələndirin.
3. Cəmiyyətin formalaşmasında coğrafi mədəniyyətin rolunu əsaslandırın.
4. Dünyanın coğrafi mənzərəsinin komponentlərini şərh edin.
5. Coğrafi mədəniyyət və ekologiya əlaqələrini təhlil edin.

**Mövzu11. Dünyanın mədəni- coğrafi rayonlaşdırılması.**

Mədəni coğrafi rayonlaşdırmanın tipləri (homogen,funksional,vernakulyar-adi).Geomədəni məkanın delimitasiyasında nəzərə alınan təbəqələr.Geomədəni məkan (horizontal-maddi,vertical-mənəvi). Mədəni coğrafi regionun yaranma faktorları.Mədəni coğrafi rayonlaşdırmanın səviyyələri(metaetnik-etnik,subetnik-reqional,subreqional-lokal). Mədəni coğrafi rayonlaşdırmanın növləri (Tarixi-mədəni.iqtisadi-mədəni,social-mədəni,təbii-mədəni və ya mədəni landşaftlar).Etnolinqvistik,tarixi-mədəni,social-mədəni, siyasi-mədəni regionlar və marginal ariallar.

*Mövzunun təlim nəticələri:*

MTN-1- Mədəni coğrfi rayonlaşdırmanın tiplərini izah edir;
MTN-2–Mədəni coğrafi regionun yaranma faktorlarını şərh edir;
MTN-3–Mədəni coğrafi rayonlaşdırmanın növlərini səciyyələndirir;
MTN-4 -Mədəni coğrafi rayonlaşdırmanın səviyyələrini müəyyənləşdirir;
MTN-5- Etnolinqvistik, tarixi-mədəni regionlar və marginal arealları xarakterizə edir.

*Qiymətləndirmə tapşırıqları:*

1. Mədəni coğrfi rayonlaşdırma hansı tiplər üzrə aparılır?
2. Mədəni coğrafi rayonlaşdırmanın növlərini şərh edin.
3. Mədəni coğrafi regionun yaranma faktorlarını səciyyələndirin.
4. Mədəni coğrafi rayonlaşdırmanın səviyyələrini müəyyənləşdirin.
5. Etnolinqvistik, tarixi-mədəni regionlar və marginal arealları fərqləndirin.

**Mövzu 12. Türk dünyasının mədəniyyət coğrafiyası.**

Türk adı və coğrafiyası.Türk dünyasının etnogenezi. Sivilizasiyanın əsas əlamətləri və Türk dünyasının bu baxımdan təhlili. İslamaqədərki Türk dövlətləri. Müasir Türk dövlətlərinin mədəni reqionları.

Türk mifologiyası. Türklərin qədim adət-ənənələri. Tək Tanrı fəlsəfəsi.(Göy Tanrı-Tenqri.) Qədim Türk ruhunda totemlər, inanclar.Türk mentaliteti,mentifaktlar.Türk xalqları və din. İslam mədəniyyətinin Türk nümunəsi.Türk maddi, mənəvi mədəniyyət nümunələri, Runi əlifbası.Orxon-Yenisey abidələri. Türklərin dövlətçilik mədəniyyəti.

*Mövzunun təlim nəticələri:*

MTN-1 – Türk dünyasının etnogenezini izah edir;
MTN-2 – Türk xalqlarının dini etiqadlarını şərh edir;
MTN-3 – Türk sivilizasiyasının əsas əlamətlərini təhlil edir;
MTN-4 – Türk yazılı mədəniyyət nümunələri, Orxon-Yenisey abidələrinin mahiyyətini qiymıtləndirir;
MTN-5 - Qədim Türk totemləri, inanclarını əsaslandırır.

*Qiymətləndirmə tapşırıqları:*

1. Türk adı və coğrafiyasını izah edin və göstərin.
2. Türklərin etnogenezinin,İslamaqədərki Türk dövlətlərinin özünəməxsus xüsusiyyətləri hansılardır?
3. Müasir Türk dövlətlərinin mədəni reqionlarını təhlil edin.
4. Türk mədəniyyəti nümunələri,Orxon-Yenisey abidələrinin mahiyyətini qiymətləndirin.
5. Türk xalqlarının dini etiqadlarını təhlil edin.

**Mövzu 13. Azərbaycanın mədəniyyət coğrafiyası.**

Azərbaycan qədim sivilizasiya ocağı kimi. Azərbaycanda təkamül mərhələləri. İlk mədəni mərkəzlər.Etnomədəni sistemlər (qədim dövr,İslamaqədərki dövr,orta əsrlər,xanlıqlar dövrü,rus imperiyası,sovet imperiyası,müstəqillik dövrü).

*Mövzunun təlim nəticələri:*

MTN-1– Azərbaycanı qədim sivilizasiya ocağı kimi xarakterizə edir;

MTN-2 –Azərbaycanda təkamül mərhələləri, ilk mədəni mərkəzləri şərh edir;

MTN-3 – Etnomədəni sistemləri təhlil edir;

MTN-4 – Qədim dövr, İslamaqədərki dövr, orta əsrlər dövrünü fərqləndirir;

MTN-5–Azərbaycanda rus imperiyası, sovet imperiyası və müstəqillik dövrü etnomədəni nümunələrini şərh edir.

*Qiymətləndirmə tapşırıqları:*

1. Azərbaycanı qədim sivilizasiya ocağı kimi xarakterizə edən hansı məkənları göstərə bilərsiniz?
2. Azərbaycanda təkamül mərhələlərini şərh edin.
3. Azərbaycanda geomədəni inkişafı dövrlər üzrə necə qiymətləndirərsiz?
4. Azərbaycanın qədim və İslamaqədərki dövr etnomədəni nümunələrini müqayisə edin.
5. Etnomədəni sistemləri təhlil edin.

**Mövzu 14. Azərbaycanın maddi və mənəvi mədəniyyəti.**

İnanclar, dil,şifahi xalq ədəbiyyatı nümunələri,yazı və s. Qədim Azərbaycan ərazisində din. Xristian və İslam mədəniyyətinin inkişaf mərhələləri.Müasir Azərbaycanda dini konfesiyalar. Təsviri incəsənət,memarliq abidələri, heykəltəraşlıq, musiqi mədəniyyəti, incəsənətin digər sahələri, muzeylər, teatr və kino, idman. Azsaylı xalqların mədəni irsi və onun qorunması**.**

*Mövzunun təlim nəticələri:*

MTN-1 – Azərbaycanda inanclar, dil, şifahi xalq ədəbiyyatı nümunələrini şərh edir;

MTN-2 –Azərbaycan ərazisində xristian və İslam mədəniyyətinin inkişaf mərhələlərini xarakterizə edir;

MTN-3 –Azərbaycanda azsaylı xalqların mədəni irsi və onun qorunmasını şərh edir;

MTN-4 –Müasir Azərbaycanda dini konfesiyaları şərh edir.

*Qiymətləndirmə tapşırıqları:*

1.Azərbaycanda inanclar, şifahi xalq ədəbiyyatı nümunələrini şərh edin.

2.Azərbaycan ərazisində xristian və İslam mədəniyyətinin inkişaf mərhələləri hansı dövrləri əhatə edir?

3.Azərbaycanda azsaylı xalqların mədəni irsi və onun qorunmasını necə qimətləndirmək olar?

4.Müasir Azərbaycanda dini konfesiyaları şərh edin.

5.Azərbaycan ərazisində ilk səmavi dinin yaranması hansı dövrü əhatə edir?

**Mövzu 15 Ümumdünya mədəni irsi. Maddi-mədəni və qeyri-maddi mədəni irs.**

Dünya mədəni irsinin qorunması. Funksional,hüquqi,məntiqi yanaşma.UNESCO, İCESKO, OWHC və s. təşkilatların rolu. Maddi- mədəni və qeyri-maddi mədəni irs nümunələri. Azərbaycanda UNESCO-nun ümumdünya irsi obyektləri. Əsas və müvəqqəti namizədlər.

*Mövzunun təlim nəticələri:*

MTN-1-Dünya mədəni irsinin qorunması. Funksional,hüquqi,,məntiqi yanaşmanı şərh edir;
MTN-2 – UNESCO, İCESKO, OWHC və s. təşkilatların rolunu izah edir;
MTN-3 – Azərbaycanda UNESCO-nun ümumdünya irsi obyektlərini,əsas və namizədləri şərh edir;
MTN-4- Azərbaycanın UNESCO-nun mədəni irs siyahısına daxil edilmiş qeyri-maddi irs nümunələrini qiymətləndirir.

*Qiymətləndirmə tapşırıqları:*

1.Dünya mədəni irsinin qorunması, funksional,hüquqi,,məntiqi yanaşmanı şərh edin.
2. UNESCO, İCESKO, OWHC və s. təşkilatların rolunu izah edir.
3. Azərbaycanda UNESCO-nun ümumdünya irsi obyektlərini,əsas və müvəqqəti namizədləri şərh edin.
4.Azərbaycanın UNESCO-nun mədəni irs siyahısına daxil edilmiş qeyri-maddi mədəni irs nümunələrini sadalayın və qiymətləndirin.
5. Azərbaycanın UNESCO-nun mədəni irs siyahısına daxil edilmiş maddi mədəni irs nümunələrini sadalayın və qiymətləndirin.

***İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT***


1. Məmmədova F.C.Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası.Bakı 1986.
2. Məmmədov F.T.Kulturologiya effektivli həyat və fəaliyyətə aparan yol kimi.Bakı,"Çıraq",2008

3.Məmmədov F.T. Kulturologiya,mədəniyyət,sivilizasiya.Bakı.2016

4.MəmmədovF.T. Kulturologiya və insan inkişafı.Bakı.2019

5.Hüseynov İlqar.,Əfəndiyeva Nigar.Qədim dünya mədəniyyəti.Bakı 2009

6.Хантингтон С.Столкновение цивилизаций.М.,2003.

7.Шаповалов Ю.В.Специфика техногенной цивилизации в условиях Глобализации.Армовир.2010.

8.Dallmayr F.Who are we? What is WPF-Dialogue of Civilization? URL:http://wpfdc.org/rhodes-forum/18360-who-re-we-is-wpf-dialogue-of-civlizations

9.Каткова М.В.Культура,цивилизация,религия в современном мире. Саратов, 2010.

10.ПесковА.Е.,Кленина Е.А. Основы культурологии:теоретический курс. Волгоград ВолгГАСУ 2013.

11.Манаков А.Г. Основы культурно-географической регионалистики.Псков 2005.

12.Любичанковский А.В. География культуры Оренбург 2014.

13.Дирин Д.А.Факторы и закономерности дифференциации культурного пространства//Теория социально-экономической географии:современное состояние и перспективы развития.Ростов-на-Дону: Изд-во ЮФУ,2010.

14.Голубин Р.В.,Сорокин А.С.,Коротышев А.П.История мировых цивилизаций.Нижний Новгород 2014.

15.Самохина Н.Н.Становление моделей культуры в Американской культурной антропологии XX века. Монография.Изд-во Нижневартовского государственного университета 2016.

16.Emin Atasoy prof. Dr.Kültür coörafyası ve etnocoğrafyanın temellәri.

İstanbul-2019, değişim.